Milli Məclisdə 2015-ci ilin Dövlət büdcəsinin layihəsi müzakirə olunur

Mətbuatın geniş planda verdiyi məlumata görə 2015-ci ilin dövlət büdcəsi layihəsi və büdcə zərfinə daxil olan digər sənədlər Milli Məclisin komitə iclaslarında müzakirələrdən sonra parlamentin plenar iclasına tövsiyə edilmişdir. Milli Məclisin ilk olaraq noyabr ayının 18-də keçirilən plenar iclasında «Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsi haqqında» qanun layihəsi müzakirəyə çıxarılmışdır.

Layihə ilə bağlı Milli Məclisin sədri Oqtay Əsədov qeyd etmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin elmi əsaslar üzərində qurulmuş sosial-iqtisadii inkişaf strategiyası ölkəmizdə təşəkkül tapmış makroiqtisadi sabitliyi daha da möhkəmləndirməyə imkan yaratmışdır. On ildən aprtıqdır ki, Azərbaycan dünyanın ən dinamik inkişaf edən ölkələri sırasında yerini inamla qoruyub saxlayır. Oqtay Əsədov çıxışına davam edərək dedi ki, ölkənin iqtisadi həyatında baş verən müsbət keyfiyyət dəyişiklikləri büdcə zərfi sənədlərində də öz əksini tapmışdır. Büdcə zərfinə daxil olan 2015-ci il və növbəti 3 il üzrə iqtisadii və sosial inkişaf konsepsiyası və proqnoz nəticələri, 2015-ci ildə büdcə vergi siyasətinin və 2015--2018-ci illər üçün dövlət investisiya proqramlarının əsas istiqamətləri, digər başqa sənədlər vaxtında Milli Məclisə çatdırılmış və kütləvi informasiya vasitələrində elan olunmuşdur.

Cari ilin 9 ayının nəticələrini qısa şərh edən sədr daha sonra qeyd etmişdir ki, 2015-ci ilin dövlət büdcəsinin layihəsi Azərbaycanın real inkişaf səviyyəsi, dünyada gedən siyasi və iqtisadi proseslərin təsiri ilə baş verə biləcək mənfi təzahürlər nəzərə alınmaqla hazırlanmışdır. 2015-ci ilin dövlət büdcəsinin gəlirləri cari illə müqayisədə 5,7 faiz artırılaraq 19,4 milyard manat, xərcləri isə 5,2 faiz artırılaraq 21,1 milyard manat məbləğində nəzərdə tutulur.

İclasda Milli Məclisin iqtisadi siyasət komitəsinin sədri Ziyad Səmədzadə, Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov, iqtisadiyyat və sənaye nazirinin müavini Sevinc Həsənova, Azərbaycan Respublikası Mərkəzi Bankının sədri Elman Rüstəmov, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov çıxış edərək büdcə layihəsinin əsas məqamlarını diqqətə çatdırmışlar. Qeyd olunmuşdur ki, ümumi daxili məhsulun (ÜDM) həcmi 2010-cu ilə nisbətən 1,4 dəfə artacaq. Bu artım əsasən qeyri-neft sektorunun hesabına təmin ediləcək. Bütövlükdə 2015-ci il Dövlət büdcəsinin xərcləri ÜDM-nin 35,3 faizi həcmində və ya cari illə müqayisədə 1,3 faiz çox nəzərdə tutulur.

Gələn ilin dövlət büdcəsi xərclərində sosialyönümlü xərclərin xüsusi çəkisi 27,6 faiz olmaqla 2014-cü illə müqayisədə 1,1 faiz bənd artırılıb. Mütləq ifadədə bu məqsədə 5 milyard 826,5 milyon manat vəsait ayrılması proqnozlaşdırılır. Bu da 2014-cü ilə nisbətən 489,2 milyon manat və ya 9,2 faiz çoxdur.

Büdcə layihəsində bir çox göstəricilər artımla nəzərdə tütulmuşdur. Hesablama Palatası sədrinin çıxışından sonra deputatlar üçgünlük müzakirələrdə layihə ilə əlaqədar təklif və rəylərini söyləmişlər.

Milli Məclisin sədri Oqtay Əsədov 2015-ci il dövlət büdcəsi zərfinə daxil olan qanun layihələrinin müzakirəsinin başa çatdığını elan etdi. Müzakirələr zamanı səslənən təkliflərin dəyərləndirilməsi üçün hökumətə vaxt ayrıldı.

Nadir ATAKİŞİYEV.

QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2014-cü İLİN DEKABR AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ QƏBULLARIN VƏ GÖRÜŞLƏRİN QRAFİKİ

Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər, qəsəbə, kənd)	Tarix	Görüşün keçiriləcəyi yer və vaxtı
Zarağan qəsəbəsi	02.12.2014	Kənd məktəbi, saat 15^{00}
Mollaşıxalı kəndi	09.12.2014	İcra nümayəndəliyi, saat 11^{00}
Mıxlıqovaq kəndi	16.12.2014	Klub müəssisəsi, saat 11^{00}
Hacıalılı kəndi	23.12.2014	Mədəniyyət evi, saat 11^{00}
Bəyli kəndi	30.12.2014	İcra nümayəndəliyi, saat 11^{00}

Qəbula dəvət olunurlar: təhsil, səhiyyə, mədəniyyət və turizm şöbələrinin, hüquq-mühafizə orqanlarının, əhalinin sosial müdafiəsi, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol istismar, baytarlıq, qaz istismar, torpaq və xəritəçəkmə, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri.

YAP Qəbələ Rayon Təşkilatı bələdiyyə seçkilərinə hazırlıq işlərini uğurla həyata keçirir

Respublikamızın bütün bölgələrində olduğu kimi, Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatında da 23 dekabrda keçiriləcək bələdiyyə seçkilərinə ciddi hazırlıq işləri aparılır. YAP Qəbələ rayon təşkilatının sədr müavini, partiyanın bələdiyyə seçkiləri üzrə səlahiyyətli nümayəndəsi Elçin Tağıyev məlumat verdi ki, Bələdiyyə seçkilərinə start verildikdən sonra rayon təşkilatı seçki hazırlığı ilə əlaqədar İcra Katibliyi tərəfindən verilən tövsiyə və tapşırıqların birinci mərhələsini uğurla başa çatdırmışdır. Qarşıdan gələn seçkilərin şəffaf keçirilməsi üçün geniş fəaliyyət proqramı hazırlanmış və 12 nəfərdən ibarət seçki qərargahı yaradılmışdır. Görüləcək işlərin mütəşəkkil həyata keçirilməsi üçün qərargah üzvləri arasında iş bölgüsü aparılmışdır. Qərargahın üzvlərinə mütəmadi olaraq treninqlər keçirilir, görüləcək işlər barədə tapşırıqlar verilir. Mərkəzi Seçki Qərargahı ilə müntəzəm əlaqə saxlayır, lazımi məsləhətlər alırıq.

Hazırda partiyanın 76 ilk təşkilatında 5829 nəfərdən çox üzvü vardır. Bu üzvlərin fəallarından rayonda olan 29 bələdiyyəyə 275 nəfərin namizədliyi irəli sürülmüşdür. Bələdiyyələrə namizədliyi irəli sürülənlər arasında gənclər və qadınlar üstünlük təşkil edir.

Artıq imza vərəqələrinin dairə seçki komissiyalarına təqdim olunması yekunlaşmışdır. Rayonumuzda fəaliyyət göstərən 116 saylı Qəbələ və 117 saylı Oğuz-Qəbələ seçki dairələri partiya tərəfindən irəli sürülənlərin namizədliklərini təsdiqləyiblər. Rayon təşkilatı namizədlərin təbliğat işinin səmərəli təşkili üçün rayonda partiya fəallarından ibarət təbliğat qrupları yaratmış, namizədlərin şəkilləri əks olunan plakatlar sifariş verilmiş, digər təbliğat vasitələri hazırlanmaqdadır. Təbliğat-təşviqat kompaniyasına rəsmən start verildikdən sonra bütün zəruri tədbirlər həyata keçiriləcəkdir.

Qeyd olunanlarla yanaşı rayonun 77 məntəqə-seçki komissiyalarında fəaliyyət göstərəcək Yeni Azərbaycan Partiyasını təmsil edən məşvərətçi səs hüquqlu üzvlər və müşahidəçilər də müəyyənləşdirilmişdir.

Rayon təşkilatı əvvəlki seçkilərdə olduğu kimi Seçki Məcəlləsinin tələblərinə düzgün əməl edərək bələdiyyə seçkilərini şəffaf, demokratik qaydada və tələb olunan səviyyədə həyata keçirmək üçün çalışır, seçki qərargahı tərəfindən bu istiqamətdə tədbirlər ardıcıl olaraq davam etdirilir.

İşsizliyin aradan qaldırılması əsas vəzifədir

Noyabrın 19-da Qəbələ Rayon Məşğulluq Mərkəzində «Azərbaycan Respublikasında Məşğulluq strategiyasının (2011—2015-ci illər) həyata keçirilməsində sosial tərəfdaşların rolu» mövzusunda dəyirmi masa keçirilmişdir.

Tədbirə rayonda olan idarə və müəssisələrin rəhbərləri, digər işə götürən təşkilatlarfn nümayəndələri dəvət olunmuşdu.

Rayon məşğulluq mərkəzinin direktoru Elxan Səlimov mövzu ilə əlaqədar geniş məruzə etmişdir. Natiq bildirmişdir ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş məşğulluq strategiyası sayəsində müstəqil respublikamızda insanların məşğulluğu problemləri uğurlu həllini tapmış, nəticədə hazırda ölkəmizdə iş qabiliyyətli insanların 95 faizi işlə təmin olunmuşdur.

Məşğulluq strategiyası ilə əlaqədar 2005-ci ildən bəri möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən 3 sərəncam imzalanmışdır. Bu sərəncamlarla təsdiq olunmuş Dövlət Proqramlarının həyata keçirilməsi nəticəsində son 10 ildə ölkəmizdə 900 mini daimi olmaqla 1 milyon 300 min daimi iş yeri açılmışdır.

(Ardı 5-ci səhifədə).

Foto S. Umuyevindir.